# Uçan avtobus

*hekayə*



■ Orxan Həsəni

*Atama həsr edirəm, çünki ona səssizcə söz vermişdim*

Mən uçuram!

Uşaqlığımda kosmanavt olmaq istədim, gəncliyimdə pilot. Yaşlanmışam. Avtobus şoferiyəm.

Avtobusun işıqları bir cüt parıltılı göz bəbəyi kimi küçələrin zülmətini yarıb keçdikcə külək balaca dirəkdən asılı bayrağı havalandırır, üzümün qırışlarında cadarlı bir xətt yaradır, klassik dillə desək, ruhumu göynədir.

Allahdan gizlin deyil, daha sizdən niyə gizli qalsın, ömrüm dayanacaqdan dayanacağa intervalı gözləməklə keçir, yolları ayaqdan saldıqca hislərim rəngsizləşir, paslanır, yaşlanıb dərisi boşalmış şar kimi təravətini itirir və hamısından, hamısından kədərlisi qırış basmış ixtiyar qocaya çevrilirəm.

Ah, dispeçerlərin zil səsindən kədərli nə var?! "Nərimanooov, Gənclikkk, 28 mayyy..." - bu səslər avtobusdan qabağa düşüb sonrakı dayanacağa yüyürür, avtobusu da arxasınca çəkib aparır. Səslərin iziylə gəzirəm Bakı küçələrində.

Bir də gördün hündür binaların arxasından bir dəli külək qalxır, avtobusun açıq pəncərəsindən içəri soxulur, xəyalat kimi gəzişir içəridə və qapılar "çıss" eləyib açılmayınca özünə yer tapmır, adamdan adama, masadan masaya çırpılıb sönür.

* * *

- Bircə qanadın çatmır - köhnə həyat yoldaşım hər dəfə avtobusun balaca qanadlarını görəndə deyir - sabah eyni boyda olacaqsız e - adsız barmağını qeyzlə oğluma tuşlayır.

Oğlum mırıq dişlərini göstərib gülümsəyir:

- Vıyyy, - bu vaxt oyuncaq təyyarəsini qaldırır, əlləri ağır-ağır uçub quş lələyi kimi yerə qonur, - ata, gəl bir yerdə uçaq.

Dinmirəm.

- Ata, uça bilirsən? Ata, at, a...

* * *

Arvadımı az gözümün üstündə saxlamamışdım, ağzından vurmamışdım, bir dediyini iki eləməmişdim. Onu hələ təzə-təzə tanıdığım vaxtlar xoflanmışdım, bilmişdim, daha başım bağlandı, daha öz əlim-öz ətəyim söhbəti yoxdu. O park sənin bu park mənim gəzib dolana-dolana bir də gördük evlənmişik. Əvvəl adam elə bilir bu dünyada bircə qadın var, o da evdə oturub kartof soyur, sonra gözün açılır, görürsən, dünya gözəliklə doludur, amma həm də onu bilirsən, lap dərininə gedəndə bütün qadınlar eynidir. Şübhəsiz, arvadım da bunu düşünməmiş olmazdı, çünki, lap-lap dərininə gedəndə, kişilər bir-birinə qadınlardan daha çox bənzəyirdilər. Elə olurdu, işdən yorğun gəlib çarpayının içində qurcalana-qurcalana yaradandan yuxu diləndə dilindən yad kişilərin adını eşidirdim. Sabah bu adların hamısını unudurdum. Amma günlərin bir günü o adları qeyd eləməyə başladım. Siyahıya yeni adlar əlavə olundu, həvəslə yazdım! Arvadım oğlumun adını özü qoymaq istəyəndə siyahını bir də nəzərdə keçirdim. Dediyi adı tapmadım. Bəlkə, buna görə razılaşmağım bir az çətin oldu.

- Bircə qanadın çatmır - nə vaxt görüşsək köhnə həyat yoldaşım avtobusun balaca qanadlarına sataşır. O qanadların orda nə işi var bilmək üçün davam eləyək...

* * *

Avtobusun kənarlarına kleylə bir cüt zərli qanad yapışdırmışam. Bilirəm, hə, bilirəm: küləyin, bir də bu qanadların gücünə dəbərir avtobus. Yuxarıdan baxsan, elə bilərsən, balaca qanadlı təyyarədir. Xəyal atın qaçağandısa (ifadəyə bax ha), bozumtul asfalt da masmavi göy üzü kimi görünər. Onda köpük içində uşaq nəfəsi kimi havalanıb gəzişərsən. Dispeçerlərin zil səsindən, qırmızı işıqların darıxmaq qəfəsindən, gözəl qadınların gülümsəməsindən birdəfəlik üzülüşərsən.

* * *

Bakı küçələrini ovcumun içi kimi bilirəm. O küçələrdə yaşayan adamlar da mənə tanışdı. Məsələn, gəlin sizi biriylə tanış edim. Xareoqrafiya Akademiyasının qabağındakı dayanacaqda avaralanan bomju deyirəm. Necə yəni tanımırsan? O saqqalı üzündə yuva quran var ha, öz-özünə danışır, bir barmağı həmişə havada olur, hamıya gülümsəyir, bax onu deyirəm. Yaxşı qulaq as, ən maraqlı yerinə gəlirəm. Demək o bomj hər gün çiynini dəmir oturacağa dayayıb sahilə sərələnmiş morj kimi günəşlənir. Günügüzəranı dayanacaqda gözləyən adamların sədəqə xətrinə verdiyi qəpik-quruşla keçir.



Onu tanıyıram. Yalan demə, onu sən də tanıyırsan. Birdən gözlərini bərəldib adsız barmağını havaya tuşlayır. Yastığa bənzər buludların arxasından zülmət səmaya ləkə kimi düşən ayı göstərir. Nəzakətlə deyir:

- Bağışlayın, avtobus ora gedir?
- Hara?
- Ora
- Hara?
- Ora da!
- Açıq de görüm

Qabağa gəlib qulağıma əyilir.

- Aya
- Nə?
- O yuxarıdakı Aya aparırsanmı?
- Məzələnirsən?
- Vallah, yox!

Başımı yelləyirəm. Qabağıma düz-əməlli adam çıxmaz da. Dəlilərlə keçir günüm.

Niyə uzadım ki, xülasə, bu oyun hər gün eyni vaxtda Xareoqrafiya Akademiyasının qabağındakı tənha dayanacaqda təkrar olunur və hər dəfə bu dialoqa başımı salladıqca xatirələrim çalxalanır, yaddaşım dirilir, canlanır. Uşaqlığımı xatırlayıram.

* * *

Uşaqlığımda kosmonavt olmaq istəmişəm. Vallah! Özümə uydurma bir raket də düzəltmişdim onda. Həyətimizdəki içi oyuq ağacdan...

Yalançı düymələrə basıb gözləyirdim. Üç, iki, bir... Gözlərimi yumanda göyün yeddinci qatındaydım. Göyün yeddinci qatında, kosmosun nəhayətsiz boşluğunda ulduzlara dəyə-dəyə, planetlərin arasından sivişib keçirdim. O vaxt qulaqlarımı da əllərimlə möhkəmcə sıxırdım. Kosmos deyilən yer haradırsa, yəqin, orda insan deyilən bir canlı yaşamır, insan olmadığından mütləq ki səssiz bir yer olmalıdır. Əllərimi qulaqlarımda nə qədər möhkəm sıxırdımsa, atamın cod səsini batıra bilmirdim. Evdən dava-dalaş səsi kəsilmirdi, hər dəfə atamın cod səsi daha ucadan eşidilirdi.

O səslər içimdə qoruna-qoruna mənimlə düz kosmosacan gəlirdi və gözlərimi qapayıb dünyanı unudanda, başqa bir aləmin çəkisizliyində uçanda hardasa uzaq, işıqlı bir planetin arxasından o səsləri eşidirdim. Səslərlə birgə içimə bir qorxu da soxulurdu. Tez o səslərdən qaçıb çarpayının altına girmək, şkafda pal-paltarın arasında gizlənmək istəyirdim. Komsosun çəkisiz ləzzətindən zövq ala-ala əlimayağıma dolaşır, ulduzlar, planetlər - hamısı gözümdə şkafa, çarpayıya dönürdü.

* * *

Gəncliyimdə pilot olmaq istəyirdim. Divardan təyyarə posterləri asırdım, özüm də o təyyarələrin içində. Köpük kimi havada süzə-süzə quşları qorxudurdum. Quşlar havadaca təyyarənin şəffaf şüşəsindən mənə baxırdılar. Elə bilirdim, o quşların da içində mənim kimi bir xəyalpərəst uçur. O xəyalpərəstin də bu dünyada qorxduğu səslər var.

Hər şey yuxarıdan şəkil kimi görünürdü.

Yaşlıyam, avtobus sürücüsüyəm. Əhvalatın baş verdiyi ərəfədə oğlumla həftədə bir dəfə görüşürdük. Adam öz oğlunun adını yadırğayar? Hərdən məndə olur. Belə də ki, adın nə fərqi? Romeo adını dəyişsəydi, öz "romeoluğundan" nə itirəcəkdi?

Oğlum elə bilir, əlimdən hər iş gəlir. Sınmış oyuncaqlarını düzəldir, velosipetinin boşalmış təkərlərini doldururam. Sonda şirin bir gülümsəmə. Bu adi şeylərə möcüzə kimi baxan oğlum tez-tez soruşur:

- Ata, sən uça bilirsən? - Udqunur.
- Supermen kimi!
- Hə.
- Bəs xələtin hardadı?
- Mənim xələtim bax sənin qollarında.

Sonra

- Ördəklərlə təyyarələr toqquşmur?
- Yox
- Yooo, toqquşurlar - maşın oyuncaqlarını bir-birinə vurur. - "Dırşş", bax elə.
- İşıqfor olmasa, toqquşarlar.
- Aa, göydə işıqfor var?

Hər dəfə bu sualı verib gözlərini təəccüblə açır. Bərəlir gözləri. Mən belə vaxtlarda onun iriləşmiş gözlərində nəhəng bir səma görürəm. Ördəklərlə təyyarələr o səmada bir-birinə yol verirlər.

* * *

Həmin gün də əvvəlki yeknəsəqliyində davam edirdi. Səhərin alatoranında qanadlı avtobusuma minmiş, pilot kabinəsinə bənzər kabinədə yerimi rahatlamış, işə başlamışdım. Gün günortaya dirəndikcə ətrafdakı şeylərin hədsiz donuqluğunu hiss edirdim. Nədənsə, həmin gün məni tamam başqa şeylər düşündürürdü. Oğlumun havada ördəklərlə təyyarələrin toqquşmamağına təəccüblənməyi bir narahatlıq olub işıforun qırmızı işığı kimi içimdə yanıb-sönürdü.

Saat on ikini keçmişdi, iş vaxtım bitmişdi, depoya tələsirdim. Bu vaxt qırmızı işıqda əl-ələ tutan sevgililər qaça-qaça yola çıxdılar. Bütün bədənim boşaldı. Əzələlərim keyidi. Sonra elə bil boynuma, boğazıma iynə batırdılar. Bircə anın içində soyuq tər-suyun içində qaldım. Əyləci bassam da, bir xeyri yoxdu. Uzun və kədərli siqnal səsi. Dəhşətli mənzərəni görməmək üçün gözlərimi qapadım və bu vaxt qulağıma bircə oğlumun səsi gəldi.

- Ata, sən uça bilirsən... supermen kimi!?

Başqa bir şey eşitmədim. Bezdirici sükutdan sonra gözlərimi açdım: qırmızı "Baku Bus" quş kimi havada uçur.

Əvvəl-əvvəl sönük ulduzları gördüm. Çevrilib aşağı baxdım. Göydə gördüyüm mənzərənin eynisi yerdə də vardı, ancaq elə bil, yerdəki ulduzların küçə fənərləri olduğu bir az olsun sezilirdi. Uzandıqca uzanıb qaranlığa birləşən küçələrdən bildim, havadayam.

Uçduğumu hiss eləyən kimi dəli olduğumu düşündüm. Dəli olmadığımı ördəklərin mənimlə yanaşı uçduğunu görəndə hiss elədim. - Dəli bu hekayənin müəllifidir - düşündüm. Ördəklər qanadlarını çırpa-çırpa mənimlə yanaşı süzürdülər. Onlar da dəliydilər. Bu hekayədə ördəklərin nə işi var, bilmirəm, ancaq uzun siqnal səsiylə onları salamladım, hələ dözməyib əl elədim.

Avtobusu düz köhnə həyat yoldaşımın evinəcən uçurdum. Oğlum gecələr atalığıyla həyətdə futbol oynayırdı. Məni havadaca tanıdı. Gözləri yerdən endirimli paltar etiketi kimi işıq saçdı. Onu gözlərinin işığından tanımışdım, ancaq bilmədim bu yüksəklikdə o məni nədən tanıdı.

- Ata, xələtini götürməmiş hara uçursan?

İnsafsız qoymadı cavab verim, uşağı qucağına aldığı kimi bloka girib yoxa çıxdı.

Avtobusu yönünü köhnə evimizdən saldım. Uşaqlığımda içi oyuq ağacdan səmaya necə baxırdımsa, eyni maraqla aşağıya, həyətimizə baxdım. İçi oyuq ağac hələ də öz möhkəm kökləri ilə torpağı qucub dayanmışdı. Mən yuxarıdan düz həmin ağacın içinə baxdım elə bildim, indi həmin ağacın içində xəyalpərəst bir uşaq gözlərini yumub səmanı öz içində gəzdirir və indi həmin xəyalpərəst uşağın gözlərini yumub içində böyütdüyü səmada uçuram.

Köhnə evimizin üstündən keçib bütün şəhəri gəzdim və birdən Xareoqrafiya Akademiyasının qabağındakı dayanacaqda yuxulayan bomju gördüm. Diksinib oyandı, havada uçan avtobusu görüb gülümsədi və yenə adsız barmağını yastıq buludların arxasında işıqlı, ağ ləkə kimi görünən aya uzadıb dedi:

- Məzələnirsən?!

İçimdə anlaşılmaz bir acı, sonsuz bir qüssə peyda oldu. Səma ağarırdı, yaxşıca dincəlməliydim, sabah işə çıxacaqdım və sükan arxasında yorğun, yuxusuz olmaq təhlükəliydi.

Yenə ördək dəstəsinə qoşuldum, bir xeyli ördəklərlə əylənib avtobusu yerə endirdim. Bu an hiss elədim ki, ördəklər vecimə deyil, uçsam da, sürünsəm də, sabah işə çıxmalıyam.

- Mən sadəcə avtobus sürücüsüyəm - içimdə dedim - hamınızın tanıdığı avtobus sürücüsü. Supermen yox!

* * *

Yorğun bir günün ardından işə çıxmışdım. Xəbər gəldi ki, marşurt xəttinə yeni dayanacaq əlavə olunub. Soruşdum.

- Ay işığı restoranı - dedilər.

Gülümsədim.

Mən hələ də uçuram!